**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİNİN KOLLEGİYASININ QƏRARI**

**№ KQ-12**

**Bakı şəhəri** **“03” sentyabr 2024-cü il**

**"Ali təhsil müəssisələrində elmi tədqiqat və elmi-metodiki işlərin təşkili qaydalarının, professor-müəllim heyətinin tədris işi vaxtı normasının təsdiq edilməsi və “Orta ixtisas təhsili müəssisələrinin müəllim heyətinin tədris işi üçün vaxt normaları barədə” Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2004-cü il 16 aprel tarixli 325 nömrəli əmrinin ləğv edilməsi haqqında**

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun tətbiqi və “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2235 nömrəli Fərmanının 2.4-cü bəndinin icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 5.11.2-ci yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyası **qərara alır:**

1. “Ali təhsil müəssisələrində elmi tədqiqat və elmi-metodiki işlərin təşkili Qaydaları” təsdiq edilsin (1 nömrəli əlavə).
2. “Professor-müəllim heyətinin tədris işi vaxtı norması” təsdiq edilsin (2 nömrəli əlavə).
3. “Orta ixtisas təhsili müəssisələrinin müəllim heyətinin tədris işi üçün vaxt normaları barədə” Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2004-cü il 16 aprel tarixli 325 nömrəli əmri ləğv edilsin.
4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Aparatının Hüquq şöbəsinə (S.Mahmudov) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
5. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Aparatının Elm və ali təhsil siyasəti şöbəsinə (T.Süleyman), Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə (Ü.Səttarova) tapşırılsın ki, bu Qərardan irəli gələn vəzifələrin icrasını təmin etsinlər.

6. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Aparatının Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsinə (R.Xanlarov) tapşırılsın ki, bu Qərarın surətinin Nazirliyin aidiyyəti struktur bölmələrinə və qurumlarına göndərilməsini təmin etsin.

7. Qərarın icrasına nəzarət nazir müavini İdris İsayevə həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Emin Əmrullayev**

Azərbaycan Respublikasının Elm və Təhsil
Nazirliyinin Kollegiyasının 03 sentyabr 2024-cü il
tarixli KQ-12 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

**1 nömrəli əlavə**

# Ali təhsil müəssisələrində elmi tədqiqat və elmi-metodiki işlərin təşkili QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.42-1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və ali təhsil müəssisələrində (o cümlədən onların nəzdində fəaliyyət göstərən elmi tədqiqat institutlarında, elmi tədqiqat mərkəzlərində, təcrübi-konstruktor, layihə-konstruktor, təcrübi-istehsal, layihə-texnoloji müəssisələrində, sahə və elmi tədqiqat laboratoriyalarında, hesablama mərkəzlərində, rəsədxanalarda, təcrübə stansiyalarında, muzeylərdə, elmi kitabxanalarda və s.) elmi tədqiqat və elmi-metodiki işlərin təşkilini tənzimləyir.

1.2. Ali təhsil müəssisələrində aparılan elmi tədqiqat işlərinin elmi səviyyəsinə və səmərəliliyinə, eləcə də elmi tədqiqat işlərinin maliyyələşdirilməsi zamanı qanunvericiliyin tələblərinə riayət olunmasına ali təhsil müəssisəsinin rəhbəri cavabdehdir.

1.3. Ali təhsil müəssisələrində aparılan elmi tədqiqat işlərinin nəticələri professor-müəllim heyətinin müvafiq vəzifələrə seçkisi və təyin olunması zamanı nəzərə alınır.

1.4. Ali təhsil müəssisələri sifarişlər əsasında digər ali təhsil müəssisələri, elmi müəssisə və təşkilatlarla birgə elmi tədqiqatlar aparmaq, elmin inkişafı ilə bağlı layihə və proqramlar hazırlamaq və "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq digər xidmətlər göstərmək hüququna malikdir.

## 2. Elmi tədqiqat işlərinin təşkili

2.1. Ali təhsil müəssisələrində elmi araşdırmalar "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına əsasən həyata keçirilir.

2.2. Ali təhsil müəssisəsində aparılan elmi tədqiqat işlərinin istiqamətləri müvafiq sahənin inkişaf perspektivləri, ali təhsil müəssisəsinin profili, mövcud kadr potensialı, maddi-texniki və tədris bazası, infrastrukturu nəzərə alınmaqla müəyyən edilir.

2.3. Elmi tədqiqat işlərinin mövzuları və plan üzrə icra müddəti tədris ilinin əvvəlində ali təhsil müəssisəsinin Elmi Şurası tərəfindən təsdiq olunur.

2.4. Elmi tədqiqat işlərinin aparılması məqsədilə dövlət mülkiyyətində olan və ya dövlət vəsaiti hesabına yaradılan tədqiqat infrastrukturundan tədqiqatçıların istifadəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 3 noyabr tarixli 435 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət mülkiyyətində olan və ya dövlət vəsaiti hesabına yaradılan tədqiqat infrastrukturundan tədqiqatçıların istifadəsi Qaydası"na uyğun olaraq həyata keçirilir.

2.5. Elmi tədqiqat işlərinin səmərəliliyinin artırılması, elmi-texniki yeniliklərin əldə olunması və tətbiq edilməsi məqsədilə ali təhsil müəssisəsi elmi fəaliyyəti tənzimləyən struktur bölmələrinin

tabeliyində (nəzdində) tələbə elmi cəmiyyətləri, layihə, konstruktor büro və mərkəzləri, laboratoriyalar, elmi istehsalat birlikləri, kooperativlər, biznes inkubatorları, texnoparklar, startaplar və digər müəssisələr yarada bilər.

2.6. Ali təhsil müəssisələrinin nəzdində elmi müəssisə və təşkilatların, eləcə də onların tabeliyində qurumların yaradılması, yenidən təşkili və texniki təminatı ali təhsil müəssisəsinə dövlət büdcəsindən ayrılan vəsait (ayrıldığı halda), fəaliyyətindən əldə olunmuş gəlir, o cümlədən ödənişli təhsildən əldə edilən vəsait, ianələr, qrantlar, cəlb edilən investisiyalar və qanunla qadağan olunmayan digər maliyyə mənbələri hesabına həyata keçirilir.

2.7. Ali təhsil müəssisəsi elmi tədqiqat fəaliyyətini fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi araşdırmalar əsasında elmtutumlu, rəqabətədavamlı məhsulun işlənməsi və istehsal edilməsinə, onun daxili və xarici bazarlara sərbəst çıxarılmasına, tədqiqatların nəticələrinin təhsil prosesinə tətbiqinin genişləndirilməsinə, ali təhsil müəssisəsinin təcrübə və maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldir.

2.8. Ali təhsil müəssisələri elmi tədqiqatların nəticələrinin təbliğ edilməsi məqsədilə xarici ölkələrin müvafiq sahələr üzrə (elmi-texniki, sənaye və digər) sərgilərində iştirak edir, tematik toplular və reklam nəşrləri yayır, özlərinin elmi-texniki nailiyyətləri haqqında bütün maraqlı tərəflərə (dövlət qurumları, istehsalat müəssisələri, tədqiqat mərkəzləri və s.) məlumat göndərir.

2.9. Ali təhsil müəssisələrində elmi tədqiqat işlərinin nəticələrinin, səmərələşdirici təkliflərin, ixtiraların istehsalata tətbiqi, eləcə də elmtutumlu, aztonnajlı, xırda seriyalı məhsulun istehsalı, proqram təminatının yaradılması və elmi istehsalat xidmətlərinin göstərilməsi məqsədilə həmin ali təhsil müəssisəsi tərəfindən müxtəlif müəssisə və təşkilatlarla (o cümlədən ödənişli xidmətlərin göstərilməsi ilə bağlı sifarişçilərlə) müqavilələr bağlanıla bilər.

2.10. Ali təhsil müəssisələrində elmi tədqiqat işləri aşağıdakı şəxslər tərəfindən yerinə yetirilə bilər:

2.10.1. professor-müəllim heyəti;

2.10.2. elmi işçilər;

2.10.3. mühəndis-texniki işçilər;

2.10.4. ali təhsil müəssisələrinin nəzdində olan klinik xəstəxanaların mütəxəssisləri;

2.10.5. doktorantlar (fərdi iş planlarına müvafiq);

2.10.6. tədqiqatçılar (saathesabı qaydada dərs deyən professor-müəllim heyəti, ştatdankənar, müqavilə əsasında çalışan əməkdaşlar və s.);

2.10.7. stajor müəllimlər;

2.10.8. tələbələr (kurs işi, buraxılış işi, magistrlik dissertasiyası, tədris planlarında nəzərdə tutulmuş digər tədqiqat işlərinin yerinə yetirilməsi gedişində, tələbə elmi cəmiyyətlərində, həmçinin ali təhsil müəssisələrinin kafedra, elmi müəssisə və təşkilatlarında).

2.11. Ali təhsil müəssisəsinin rəhbəri elmi tədqiqat işlərinin yerinə yetirilməsində yalnız mövzunun elmi rəhbəri kimi iştirak edə bilər.

2.12. Ali təhsil müəssisəsində elmi tədqiqatları həyata keçirmək üçün elmi işçilərin işə qəbulu "Elm haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə əsasən həyata keçirilir. Ali təhsil müəssisəsinin elmi işçiləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada attestasiyadan keçirilirlər.

2.13. Elmi tədqiqat işlərinin yerinə yetirilməsinə müddətli müqavilə əsasında kənar müəssisə və təşkilatların (sifarişçi müəssisə istisna olmaqla) işçiləri öz ixtisaslarına və elmi dərəcələrinə

uyğun əvəzçilik qaydasında cəlb oluna bilərlər. Bununla yanaşı elmi tədqiqatların müvafiq mərhələlərinin yerinə yetirilməsi müddətində və ya müəyyən mövzular üzrə qısamüddətli elmi tədqiqatların həyata keçirilməsi üçün ştatdankənar elmi, mühəndis-texniki işçilər və mütəxəssislər işə qəbul oluna bilərlər.

2.14. Sifarişlər əsasında elmi tədqiqatları yerinə yetirmək üçün ali təhsil müəssisəsi rəhbərinin əmri ilə müvəqqəti yaradıcı kollektivlər təşkil oluna bilər.

2.15. Ali təhsil müəssisələrinin kafedra müdirlərinə və digər struktur bölmə rəhbərlərinə həmin ali təhsil müəssisəsinin nəzdində elmi tədqiqatları yerinə yetirmək üçün yaradılmış kooperativlərdə (kiçik müəssisələrdə) işləməyə icazə verilmir.

2.16. Ali təhsil müəssisəsində tədris prosesinin, elmin və istehsalın inteqrasiyası aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

2.16.1. ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların, elmtutumlu istehsal sahələri və sahibkarlığın birləşməsi əsasında klasterlərin, xüsusi zonaların, texnopolislərin yaradılması;

2.16.2. ali təhsil müəssisəsinin professor-müəllim heyətinin, elmi işçilərinin, tələbə və doktorantlarının elmə marağının artırılması, elmi müəssisə və təşkilatların elmi və elmi-texniki kadrlarının müxtəlif formalarda tədris prosesinə, elmi tədqiqat layihələrinə, təcrübə axtarış işlərinə, magistratura (rezidentura) və doktorantura proqramlarına fəal cəlb edilməsi;

2.16.3. qloballaşma prosesini və texnologiyanın sürətli inkişafını nəzərə alaraq, müasir dövrün tələblərinə uyğun yüksəkixtisaslı mütəxəssislərin hazırlanması;

2.16.4. müvafiq dövlət orqanları (qurumları), elmi müəssisə və təşkilatlarla birgə tədris-elm-istehsalat birlikləri və kompleksləri, baza kafedraları, elm, tədris və mühəndis mərkəz və laboratoriyaları təşkil etməklə tədris prosesinin və elmi tədqiqat işlərinin aparılması;

2.16.5. elmi tədqiqatlar nəticəsində yaradılmış yeni texniki vasitələrin (laboratoriya qurğuları, texnoloji və kompüter vasitələri, stend və sair qurğuları) tədris prosesinə tətbiq edilməsi;

2.16.6. tələbələrin elmə olan marağının artırılması məqsədi ilə yaradılmış cəmiyyətlərlə (şura, birlik və s.) birgə elmi, metodiki və təşkilati işlərin aparılması;

2.16.7. elmi tədqiqat işlərini aparmaq üçün və ya elmi tədqiqat işlərinin bir hissəsi kimi proqram təminatının, nadir cihazların və başqa avadanlıqların yaradılması məqsədilə elmtutumlu istehsalat müəssisələrinin təşkil edilməsi.

2.17. Ali təhsil müəssisələri xarici ölkələrin elm və təhsil müəssisə və təşkilatları ilə elmi tədqiqat sahəsində beynəlxalq əməkdaşlığı müqavilələr əsasında həyata keçirir.

2.18. Elmi tədqiqat sahəsində beynəlxalq əməkdaşlıq aşağıdakı məsələləri əhatə edir:

2.18.1. dövriyyəsi qanunla qadağan olunmayan elmi nəticələrin və elmi məhsulların ölkə daxilində və xarici bazarlarda alqı-satqısı;

2.18.2. xarici ölkələrin elm və ali təhsil müəssisələri, beynəlxalq təşkilatlar və fondlarla əlaqələrin yaradılması, əməkdaşlıq haqqında müqavilələrin bağlanılması, elm sahəsində fəaliyyət göstərən dövlət və qeyri-hökumət qurumlarına üzvlük, beynəlxalq elmi və elmi-texniki proqram və layihələrdə iştirak;

2.18.3. beynəlxalq səviyyəli birgə elmi layihələrin hazırlanması, fundamental və tətbiqi elmi tədqiqatların və layihə-konstruktor işlərinin təşkili, elmi-praktik forum, konfrans, simpozium, seminar, dəyirmi masa və digər elmi tədbirlərin keçirilməsi, professor-müəllim və elmi işçilərin, eləcə də tələbə və doktorant mübadiləsi, müəlliflik hüququnun qorunması tədbirləri;

2.18.4. elmi fəaliyyətin keyfiyyətini yüksəltmək məqsədilə xarici tərəfdaşlarla ölkə daxilində və xarici dövlətlərdə müştərək struktur bölmələrin (elmi mərkəzlər, filiallar, laboratoriyalar, texnoparklar, kafedralar və digər) yaradılması;

2.18.5. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin doktorantura səviyyəsində təhsil alması.

2.19. Ali təhsil müəssisələri müqavilələr əsasında müxtəlif sahələrin inkişaf etdirilməsi məqsədilə fundamental və tətbiqi elmi tədqiqatlar, təcrübə-konstruktor, təcrübə-axtarış və layihə-texnoloji işlər apara bilər.

2.20. Elmi tədqiqatların aparılması barədə sifarişçi ilə müqavilələr ali təhsil müəssisəsinin rəhbəri və ya elmi işlər üzrə prorektoru, ali təhsil müəssisəsinin filialının rəhbəri, müstəqil balansa və hüquqi şəxs statusuna malik olan elmi tədqiqat müəssisələrinin rəhbərləri tərəfindən bağlanılır.

2.21. Elmi tədqiqatların aparılması barədə müqavilələrdə tərəflərin öhdəlikləri ilə yanaşı, tədqiqatlar nəticəsində alınan materialların dərc olunması, müəllif hüquqları, xüsusi avadanlıqla təchizat və s. haqqında xüsusi şərtlər qeyd oluna bilər. Elmi araşdırma bir neçə müstəqil işdən ibarət olduqda müqavilədə planlaşdırma, maliyyələşdirmə və hesabat bütün elmi tədqiqat işi üçün bütövlükdə də nəzərdə tutula bilər.

2.22. "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq təhsil sistemində elmi araşdırmalar dövlət büdcəsi, qrantlar, müxtəlif fondlar və ali təhsil müəssisəsinin büdcədənkənar vəsaitləri, habelə sifarişlər əsasında daxil olan vəsaitlər və digər qanuni mənbələr hesabına həyata keçirilir.

2.23. Ali təhsil müəssisəsinin büdcəsi hesabına həyata keçirilən elmi araşdırmalar bu məqsəd üçün nəzərdə tutulmuş vəsait hesabına aparılır. Həmin vəsaitin məbləği və ayrılması şərtləri, o cümlədən onların verilmə prosedurları, istifadəsi ilə bağlı monitorinqin aparılması, hesabat və qiymətləndirmə üzrə tələblər ali təhsil müəssisəsi tərəfindən müəyyən olunur.

2.24. Ali təhsil müəssisələrində elmi araşdırmaların müxtəlif fondların vəsaitləri hesabına maliyyələşdirilməsi məqsədli olaraq qrant şəklində həyata keçirilir.

2.25. Ali təhsil müəssisələrində çalışan professor-müəllim heyətinin və elmi işçilərin elmi və elmi-texniki fəaliyyətinin dövlət vəsaiti hesabına ayrılmış qrant ilə maliyyələşdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 oktyabr tarixli 416 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"na uyğun aparılır.

2.26. Elmi tədqiqatların aparılması barədə bağlanmış müqavilələr əsasında ali təhsil müəssisəsinə daxil olan vəsaitlər və nəzərdə tutulan xərclər "gəlir və xərclər smetası"nda öz əksini tapır və ali təhsil müəssisəsinin rektoru tərəfindən təsdiq edilir (dövlət və bələdiyyə tərəfindən yaradılan ali təhsil müəssisələrinə münasibətdə tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə ilə razılaşdırmaqla).

2.27. Ali təhsil müəssisəsinin Elmi Şurası elmi tədqiqat işləri ilə bağlı hesabatları müzakirə edir, perspektivli və elmi-texniki tərəqqinin sürətləndirilməsinə real xidmət edən elmi istiqamətlərin inkişaf etdirilməsi, aktuallıq kəsb etməyən və ciddi elmi nəticələri olmayan elmi işlərin dayandırılması haqqında qərarlar qəbul edir.

2.28. Elmi tədqiqat fəaliyyətindən alınan nəticələrə sahiblik, istifadə və sərəncam hüquqları Azərbaycan Respublikası Mülki Məcəlləsi və tərəflər arasında bağlanmış müqavilələrə əsasən müəyyən edilir.

2.29. Dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilən elmi tədqiqat işlərinin nəticələri əqli mülkiyyət hüququnun və informasiyanın qorunmasını tənzimləyən normativ hüquqi aktlara zidd deyildirsə, ictimaiyyətə açıqlanır və internet resurslarında yerləşdirilir.

2.30. Elmin nailiyyətlərindən istifadə edilməklə yaradılan istehsal müəssisələri və digər obyektlərin təhlükəsizliyi (o cümlədən ekoloji təhlükəsizliyi) və iqtisadi-sosial əhəmiyyəti barədə ictimaiyyətə əvvəlcədən məlumat verilir.

2.31. Azərbaycan Respublikasında əqli mülkiyyət hüququnun qorunması "Patent haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında", "Elm haqqında" Azərbaycan Respublikasının qanunları və bu Qaydalarla tənzimlənir.

2.32. Elmi etika və elmi nəticələrlə bağlı hüquqların pozulması halları Elm haqqında Qanunla müəyyən edilmişdir.

2.33. Tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq ali təhsil müəssisələri hər təqvim ili üzrə dekabr ayının 15-dək elmi tədqiqat işlərinin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə müəyyən edilmiş formada hesabat təqdim etməlidir.

## 3. Elmi-metodiki işlərin təşkili

3.1. Ali təhsil müəssisələrində elmi-metodiki (o cümlədən metodiki) işlərin təşkili tədris prosesinin tədris-metodiki sənədlərlə təminatına, professor-müəllim heyətinin pedaqoji peşəkarlığının artırılmasına, təhsilalanların auditoriya və auditoriyadan kənar fəaliyyətinin təkmilləşdirilməsinə, tədris prosesinin bütün növ metod və formalarının yaxşılaşdırılmasına yönəlmiş kompleks tədbirləri nəzərdə tutur.

3.2. Elmi-metodiki işin əsas hissəsi kafedralarda həyata keçirilir. Kafedralarda aparılan elmi-metodiki işlərin ümumiləşdirilməsi fakültələr üzrə, fakültələrdə aparılan işlərin ümumiləşdirilməsi isə ali təhsil müəssisəsi üzrə aparılır. Kafedralarda və digər struktur bölmələrdə aparılan elmi-metodiki işlərin nəticələri müntəzəm olaraq ali təhsil müəssisəsinin Elmi Şurasında müzakirə olunur və qiymətləndirilir.

3.3. Kafedralarda aparılan elmi-metodiki işin məqsədi kafedranın professor-müəllim heyəti tərəfindən tədris olunan fənlər üzrə tədrisin keyfiyyətinin yüksəldilməsi, fənlər üzrə tədris-metodiki sənədlərlə təminatın yaxşılaşdırılması, professor-müəllim heyətinin pedaqoji kvalifikasiyasının artırılmasıdır.

3.4. Kafedrada elmi-metodiki işin aşağıdakı növləri həyata keçirilir:

3.4.1. dərslik, dərs vəsaitləri, fənn proqramları və elmi-metodiki məqalələrin yazılması və nəşrə hazırlanması;

3.4.2. dərslik, dərs vəsaitləri, fənn proqramları və elmi-metodiki məqalələrin müzakirəsi və elmi redaktəsi;

3.4.3. dərslik, dərs vəsaitləri, fənn proqramları, elmi-metodiki və elmi məqalələrə rəylərin yazılması;

3.4.4. elmi-metodiki şuraların bölmələrində iştirak;

3.4.5. ixtisaslaşdırılmış şuraların iclaslarında iştirak;

3.4.6. yeni təhsil texnologiyalarının hazırlanması.

3.5. Kafedranın xüsusiyyətindən (musiqi, bədən tərbiyəsi, incəsənət və s.) asılı olaraq elmi-metodiki və metodiki işin digər növləri də müəyyən edilə bilər.

3.6. Elmi-metodiki iş professor-müəllim heyətinin fəaliyyətinin tərkib hissəsidir.

3.7. Professor-müəllim heyəti fənlərin tədris ilə yanaşı digər kafedralararası, fakültə və ya ali təhsil müəssisəsi (və ya ali təhsil müəssisələri arası) səviyyəsində aparılan elmi-metodiki işlərə cəlb oluna bilərlər.

3.8. Kafedrada elmi-metodiki işə rəhbərliyi kafedra müdiri həyata keçirir. Kafedra müdiri kafedra səviyyəsində elmi-metodiki işin keyfiyyətinə və effektivliyinə, eləcə də tədris prosesinin təşkili və metodiki sənədlərlə təminatı vəziyyətinə görə məsuliyyət daşıyır. Kafedra müdiri bu məsələlərlə bağlı dekan, prorektor, rektor və müvafiq şuralara (fakültə və ali təhsil müəssisəsi səviyyəsində) hesabat verməlidir.

3.9. Kafedra müdirinə kömək məqsədilə kafedranın təcrübəli professor-müəllim heyətindən ibarət kafedra metodik qrupu yaradıla bilər.

3.10. Fakültədə aparılan elmi-metodiki iş müvafiq ixtisaslar üzrə kadr hazırlığının keyfiyyətinin yaxşılaşdırılması üçün kafedralarda aparılan elmi-metodiki işin nəzarətdə saxlanılması və koordinasiyası məqsədini daşıyır.

3.11. Fakültədə aparılan elmi-metodiki işə rəhbərliyi dekan həyata keçirir. Elmi-metodiki işin qiymətləndirilməsi və müvafiq sənədlərin hazırlanması məqsədi ilə fakültənin nəzdində dekan, fakültənin tərkibində olan kafedraların müdirləri və fakültə üzrə elmi-metodiki işə cavabdeh olan şəxslərdən ibarət Fakültə Metodiki Qrupu yaradılır. Fakültə Metodiki Qrupunun tərkibi ali təhsil müəssisəsinin Elmi-metodiki Şurası ilə razılaşdırılmaqla fakültənin Elmi Şurası tərəfindən təsdiq edilir.

3.12. Fakültə Metodiki Qrupunun əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

3.12.1. fakültənin elmi-metodiki fəaliyyətinin əsas istiqamətlərinin müəyyən edilməsi;

3.12.2. kafedralarda elmi-metodiki işlə bağlı yaranan problemlərin həlli;

3.12.3. fakültədə elmi-metodiki işin aparılması ilə bağlı tədbirlər planının hazırlanması;

3.12.4. kafedralarda aparılan elmi-metodiki işlərin aparılması ilə bağlı tədbirlər planlarının təhlili və razılaşdırılması;

3.12.5. fakültədə elmi-metodiki işin aparılması ilə bağlı tədbirlər planının icrası;

3.12.6. fakültənin tabeliyində olan kafedralarda ayrı-ayrı fənlərin tədrisi vəziyyətinin araşdırılması və təhlili, fənlərin metodiki təminat keyfiyyətinin qiymətləndirilməsi;

3.12.7. normativ hüquqi aktların və yuxarı dövlət orqanlarından (qurumlarından) daxil olan təlimatların icrası ilə bağlı tədbirlərin müəyyən olunması, onların təşkili və icrasına nəzarət;

3.12.8. elmi-metodiki işlə bağlı kafedralararası işçi qruplarının yaradılması və onların fəaliyyətinin təşkili;

3.12.9. ali təhsil proqramlarının və tədris planlarının hazırlanması;

3.12.10. kafedralar tərəfindən hazırlanmış dərslik və dərs vəsaitlərinin, eləcə də digər tədris-metodiki sənədlərin əlyazmalarının nəzərdən keçirilməsi və nəşrə tövsiyə edilməsi;

3.12.11. fakültə səviyyəsində açıq dərslərin təşkili, dərslərin keyfiyyətinin qiymətləndirilməsi;

3.12.12. profil üzrə yaxın olan digər fakültələrin və ya ali təhsil müəssisələrinin elmi-metodiki işlə bağlı təcrübəsinin öyrənilməsi və buna uyğun müvafiq tövsiyələrin hazırlanması;

3.12.13. elmi-metodiki konfransların, seminar, müsabiqə və s. keçirilməsi.

3.13. Fakültə Metodiki Qrupu fakültə üzrə elmi-metodiki fəaliyyətin təşkili barədə mütəmadi olaraq fakültə Elmi Şurasına, ildə bir dəfə isə ali təhsil müəssisəsinin Elmi-Metodiki Şurasına hesabat verir.

3.14. Fakültə Metodiki Qrupunun iclasları ən azı ayda bir dəfə keçirilir.

3.15. Ali təhsil müəssisəsi üzrə aparılan elmi-metodiki iş aşağıdakı fəaliyyətlərdən ibarətdir:

3.15.1. elmi-metodiki işin əsas istiqamətlərini müəyyən etmək;

3.15.2. elmi-metodiki işin koordinasiyası və ona nəzarət;

3.15.3. elmi-metodiki işlə bağlı yaranan problemlərin həlli;

3.15.4. elmi-metodiki işə cavabdeh olan struktur bölmələrə rəhbərlik;

3.15.5. təcrübə mübadiləsinin təşkili və qabaqcıl təcrübənin tətbiqi;

3.15.6. professor-müəllim heyətinin peşəkarlıq səviyyəsinin artırılması üzrə işin təşkili.

3.16. Ali təhsil müəssisəsi üzrə elmi-metodiki işin təşkilinə rəhbərliyi ali təhsil müəssisəsinin tədris işləri üzrə prorektoru həyata keçirir. Tədris işləri üzrə prorektor ali təhsil müəssisəsi üzrə elmi-metodiki işin təşkili ilə bağlı mütəmadi olaraq Elmi Şura qarşısında hesabat verir.

3.17. Tədris işləri üzrə prorektorun rəhbərliyi ilə ali təhsil müəssisəsi üzrə elmi-metodiki işin təşkilini həyata keçirən Elmi-Metodiki Şura yaradılır və onun tərkibi rektor tərəfindən təsdiq olunur.

3.18. Bu Qaydaların 3.2-ci bəndində qeyd olunan struktur bölmələrlə yanaşı elmi-metodiki işə ali təhsil müəssisəsinin bu fəaliyyətə cavabdeh olan struktur bölməsi və redaksiya-nəşriyyat şurası (olduğu halda) cəlb olunur.

Azərbaycan Respublikasının Elm və Təhsil
Nazirliyinin Kollegiyasının 03 sentyabr 2024-cü il
tarixli KQ-12 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

**2 nömrəli əlavə**

## Professor-müəllim heyətinin tədris işi vaxtı norması

### 1. Ümumi müddəalar

1.1. Bu Norma "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.42-1-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və ali və orta ixtisas təhsili müəssisələrində (bundan sonra - **təhsil müəssisəsi**) professor-müəllim heyətinin tədris işi vaxtı normasını müəyyən edir.

1.2. Təhsil müəssisəsinin professor-müəllim heyətinin tədris işi vaxtı norması tədris işinin həcmi və növü, tədris qruplarının fənlər üzrə formalaşdırılması xüsusiyyətləri, tədrisdə, elmi-metodiki və ya metodiki işdə iştirakı, tədrisin xüsusiyyəti, həmçinin bu və ya digər iş növünün daha səmərəli yerinə yetirilməsində onların fərdi bacarıqları, eləcə də təhsil alan kontingent (tələbələr, doktorantlar, dinləyicilər) nəzərə alınmaqla bu Normanın əlavəsinə uyğun müəyyənləşdirilir.

1.3. Professor-müəllim heyətinin tədris yükünün tədris işi vaxtı normasından az və ya çox olmasına təhsil müəssisəsinin rəhbəri məsuliyyət daşıyır.

### 2. Professor-müəllim heyətinin tədris işinin həcmi və onun növləri

2.1. Təhsil müəssisələrində professor-müəllim heyətinin ümumi tədris işinin həcmi müxtəlif fəaliyyət istiqamətləri (tədris prosesində birbaşa iştirak, tədris prosesinə hazırlıqla bağlı fəaliyyət, qiymətləndirmə, tələbələrə dəstək, elmi-metodiki və metodiki işlər, elmi tədqiqat fəaliyyəti, peşəkar inkişaf və s.) əsasında formalaşan tədris işinin növlərindən asılı olaraq müəyyən edilir.

2.2. Təhsil müəssisələrində tədris işinin aşağıdakı növləri müəyyənləşdirilir:

2.2.1. qrup (yarımqrup, qrup birləşmə) dərsləri (mühazirə, seminar, praktik məşğələlər);

2.2.2. laboratoriya işləri;

2.2.3. fərdi dərslər (xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil alan tələbələrin müəyyən xüsusi fənlər üzrə yaradılan və 1 tələbə ilə aparılan dərs növü);

2.2.4. əməli dərslər (xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil alan tələbələrin müəyyən xüsusi fənn (ifaçılıq fənləri (müxtəlif ansambllar, kvartet, müşayiət sinfi, xalq rəqs musiqisi və s.); partitura qiraəti, polifoniya, duet, gimnastika və s.) üzrə yaradılan və 2-6 tələbə ilə aparılan dərs növü);

2.2.5. təhsil müəssisəsindən kənarda keçirilən tematik dərslər (müəyyən mövzu üzrə təhsil müəssisəsindən kənarda keçirilən dərs növü);

2.2.6. imtahanqabağı məsləhətlər;

2.2.7. tələbələrin ixtisas üzrə təcrübəsi;

2.2.8. kurs layihələrinin (işlərinin), buraxılış işinin, dissertasiya işinin (magistratura və doktorantura səviyyələri üzrə) hazırlanması prosesi ilə bağlı işlər (rəhbərlik, məsləhətlərin və rəyin verilməsi və s.);

2.2.9. cari və aralıq qiymətləndirmənin aparılması, yoxlama işlərinin keçirilməsi, imtahanların qəbulu və s.

2.3. Təhsil müəssisələrində tam ştat üzrə işləyən professor-müəllim heyətinin illik tədris yükü "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 noyabr tarixli 215 nömrəli Qərarına uyğun olaraq müəyyən edilir.

2.4. Professor-müəllim heyətinə təhsil müəssisəsinin rəhbərinin qərarı ilə 1,5 ştat vahidi həcmində tədris yükü ayrıla bilər. Bundan əlavə onlar könüllü olaraq əməyin saathesabı ödənilməsi qaydasında tədris yükündən 250 saatdan çox olmamaqla əlavə dərs deyə bilərlər. Bu zaman mühazirə, seminar, laborator və praktiki məşğələlərə, eləcə də mədəniyyət, musiqi, incəsənət təmayüllü ixtisaslarda fərdi dərslərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən az olmamalıdır.

2.5. Ali təhsil müəssisəsinin rəhbərinin qərarı ilə elmi uğurları və tədqiqat səriştəsi nəzərə alınaraq elmi tədqiqatlarla məşğul olan professor-müəllim heyətinin (əsas iş yeri həmin ali təhsil müəssisəsi olduqda) illik tədris yükü 40 %-dək azaldıla bilər. Bu zaman həmin professor-müəllim heyətinin sayı ali təhsil müəssisəsinin professor-müəllim heyətinin ümumi sayının 5 faizindən çox ola bilməz.

### 3. Professor-müəllim heyətinin fərdi iş və illik işçi tədris planları

3.1. Professor-müəllim heyətinin hər tədris ili üçün fərdi iş planı və illik işçi tədris planı tərtib edilməlidir. İllik işçi tədris planı professor-müəllim heyətinin tədris etdiyi fənlərə, laboratoriya işlərinə və digər fəaliyyət növlərinə ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən sənəddir. Fərdi iş planına isə professor-müəllim heyətinin cari tədris ili üçün planlaşdırılmış tədris yükü (miqdarı saatla), elmi tədqiqat, elmi-metodiki və digər işləri daxil edilir.

3.2. Fərdi iş planı və illik işçi tədris planı kafedra müdiri (fənn birləşmə komissiyasının rəhbəri) tərəfindən tədris ilinin əvvəlində təsdiq edilir. Hər iki planın yerinə yetirilməsinə professor-müəllim heyətinin hər bir üzvi şəxsən cavabdehlik daşıyır. İllik işçi tədris planına işçinin razılığı əsasında kafedra müdirinin (fənn birləşmə komissiyasının rəhbərinin) qərarı ilə qış tətili müddətində dəyişiklik edilə bilər. Tədris ilinin sonunda professor-müəllim heyətinin hər bir üzvünün illik işçi tədris planında onun icrası haqqında müvafiq qeydlər aparılır.

| | | “Professor-müəllim heyətinin tədris işi vaxtı norması”na Əlavə | |
|---|---|---|---|
| **№** | **Tədris işinin növləri** | **Tədris işi vaxtı norması** | **Qeyd** |
| **Auditoriya saatları** | | | |
| 1 | Qrup (yarımqrup, qrup birləşmə) dərsləri | 1 akademik saat üçün 1 qrupa (qrup birləşməsinə)[1] 1 saat | |
| 2 | Fərdi dərslər | 1 akademik saat üçün 1 tələbəyə 1 saat | |
| 3 | Əməli dərslər | 1 akademik saat üçün 1 əməli qrupa 1 saat | |
| 4 | Təhsil müəssisəsindən kənarda keçirilən tematik dərslər | 1 akademik saat üçün 1 qrup (yarımqrup)[1] üçün 1 saat | |
| 5 | Laboratoriya işlərinin aparılması | 1 akademik saat üçün 1 qrupa (yarımqrupa)[1] 1 saat | |
| 6 | Tədris təcrübəsinə rəhbərlik, hesabatın yoxlanılması və qəbulu | 1 iş həftəsinə hər qrup[1] üçün 5-10 saat | |
| 7 | Doktorantlara və dissertantlara rəhbərlik | 1 doktorant (dissertant)[2] üçün hər ilə 80 saat | |
| 8 | Elmlər doktoruna rəhbərlik (elmi məsləhətçi) | 1 doktorant[2] üçün hər ilə 40 saat | |
| **Auditoriyadan kənar saatlar** | | | |
| 1 | Şifahi imtahanların qəbulu, yazılı imtahanların yoxlanılması (test vasitəsi ilə keçirilən imtahanlar istisna olmaqla) | 1 tələbə üçün 15-20 dəqiqədən çox olmamaqla | təhsil müəssisəsinin ali idarəetmə orqanının qərarı əsasında ayrılır |
| 2 | İmtahan suallarının (o cümlədən testlərin) hazırlanması | Hər fənn üzrə hər müəllimə 5 saat | təhsil müəssisəsinin ali idarəetmə orqanının qərarı əsasında ayrılır, test imtahanları üçün sual bankını hazırlayan hər müəllimə, eyni müəllim eyni fənni bir neçə qrupda tədris |

| | | | |
|---|---|---|---|
| | | | edirsə yalnız bir qrupa görə |
| 3 | Doktoranturaya qəbul zamanı ixtisas üzrə imtahanın və fəlsəfə doktoru imtahanlarının qəbulu | İmtahan qəbul edən hər müəllimə[3] hər fənn üçün 1 nəfərə 1 saat | |
| 4 | Buraxılış işinə rəhbərlik, məsləhət və rəy yazılması | Rəhbərə4 hər tələbəyə görə 20-30 saat. | |
| 5 | Magistr dissertasiyasına (magistr yaradıcılıq işinin hazırlanmasına) rəhbərlik, məsləhət və rəy yazılması | Rəhbərə[4] hər tələbəyə görə 40-60 saat (hər il üçün) | |
| 6 | Magistratura səviyyəsində elmi-pedaqoji təcrübəyə rəhbərlik | Hər tələbə üçün 10 saat | |
| 7 | Magistratura səviyyəsində elmi tədqiqat təcrübəsi[5] | Hər tələbə üçün 12 saat | |
| 8 | İstehsalat və diplomqabağı təcrübəyə rəhbərlik, hesabatın yoxlanılması və qəbulu | Hər iş həftəsinə hər qrup[1] üçün 3-5 saat | ezamiyyə tələb olunduqda ezamiyyə xərcləri təhsil müəssisəsi tərəfindən əlavə ödənilir |
| 9 | İmtahanqabağı məsləhətlərin aparılması | 1 qrup (yarımqrup) üçün 1 saat | təhsil müəssisəsinin ali idarəetmə orqanının qərarına əsasən ayrılır |

[1] Təhsil müəssisəsinin ali idarəetmə orqanının qərarı ilə ixtisasın spesifikasından asılı olaraq tədris qrupu yarımqruplara bölünə və ya fənlər üzrə kreditlərin (saatların) miqdarı və tədris edilən fənnin məzmunu proqram üzrə eyni olduqda bir neçə tədris qrupu birləşdirilə bilər. Saatların qrup birləşməsi, qrup və ya yarımqrupa ayrılması təhsil müəssisəsinin ali idarəetmə orqanının qərarı əsasında aparılır.

[2] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na əsasən bir elmi rəhbərə (məsləhətçiyə) 5 nəfərdən çox doktorant (dissertant) təhkim oluna bilməz.

[3] İxtisas fənni üzrə fəlsəfə doktoru imtahanının keçirilməsi üçün elmi müəssisə və təşkilat, ali təhsil müəssisəsi rəhbərinin əmri ilə hər bir ixtisas üzrə tərkibi 5 nəfərdən az olmamaqla sədr, sədr müavini və üzvlərdən ibarət imtahan komissiyası yaradılır.

[4] Bir elmi rəhbər 5 nəfərdən çox tələbənin buraxılış işinə (magistr dissertasiyasına) rəhbərlik edə bilməz.

[5] Bir təcrübə rəhbəri 5 nəfərdən çox tələbənin elmi tədqiqat təcrübəsinə rəhbərlik edə bilməz.